Oruc Dadaşi Elman

## Gözdən Düşməsin

Zülfün pərişan eyləyir, tâ şanə gözdən düşməsin
Vermir nişan, vəhdət xalın, heç dânə gözdən düşməsin

Öz âşiqin Məcnun edib, hər ləhzə kuyindən qovur
Mülkündə siğmir böylə yar, biganə gözdən düşməsin

Peyman pozub, məst olmağın, kəffarəsin can söyləyib
Bəs doldurur peymanəmi, meyxanə gözden düşməsin

Məscid onun kaşanəsi, m'əbəd onun can qibləsi
Hərdən edir kafər məni, bütxanə gözdən düşməsin

Düzlük məramın göstərən, sönməz günəşdir canlara
Câdugər etmiş qözlərin, rindanə gözdən düşməsin

Əslində âşiq yar odur, canlar onun m'əşuqudur
Zahirdə cismin yandırır, pərvanə gözdən düşməsin

Başdan keçən hər kimsənin, qəlbində gör, sən əqlini
Bir sirrə, min sər qaydadir, divanə gözden düşməsin

Həç yer könül tək yar üçün, olmaz geniş sonsuz qədər
Gözlərdə sirrin gizlədir, viranə gözdən düşməsin

Dönməz mədardan doğrudur, daşqın dənizdən mehriban
Usturələr nəbzin gəzir, əfsanə gözdən düşməsin

Çoxdan məhəbbət borcumun, üstün tutub min qat sələm
Gahdan açır qəm dəftərin, beyânə gözdən düşməsin

Eşqin səfasın bəsləyir, bəhrində ki gizlin sədəf
*Elman* gözün ağlar qoyur, dürdanə gözdən düşməsin